**“Dövlət təhlükəsizlik orqanlarının fəxri rəhbəri” mövzusunda elmi-praktiki konfransın materialları. DTX-nın Heydər Əliyev adına Akademiyası. Bakı, 2 may 2023.**

# ABŞ hüququnda şəxsi və ailə həyatına hörmət hüququnun tənzimlənməsi

**Nuridə Əlizadə Elton qızı**
**Ədliyyə Akademiyasının baş məsləhətçisi**
**Məhkəmə Ekspertizası Mərkəzinin dissertantı**
alizadenuride91@gmail.com

**Açar sözlər:** Şəxsi və ailə həyatına hörmət hüququ, Hüquqlar Haqqında Bill, ABŞ Federal Ali Məhkəməsi, insan hüquqları, anqlo-sakson hüquq sistemi

**Keywords:** Right to respect for private and family life, Bill of Rights, US Federal Supreme Court, human rights, Anglo-Saxon legal system

**Ключевые слова:** Право на уважение частной и семейной жизни, Билль о правах, Федеральный Верховный Суд США, права человека, англо-саксонская правовая система.

Adətən insan və vətəndaşın hüquq və azadlıqları haqqında danışarkən ilk növbədə avropa hüquq sisteminə aid olan beynəlxalq sənədlərə nəzər yetirilir. Belə sənədlər kifayət qədər çoxdur və hər biri geniş şəkildə araşdırılıb. Bu məqalədə anqlo-sakson hüquq sitemine daxil olan Amerika Birləşmiş Ştatlarının (bundan sonra ABŞ) hüququnda şəxsi həyatın toxunulmazlığının necə təsbit edilməsinə nəzər yetiriləcək. Bilirik ki, hüquqlar və azadlıqlar ölkələrin əsas qanunları olan konstitusiyalarda öz təsbitini tapır. Ona görə də əvvəlcə dünyada ilk yazılı konstitusiya olan ABŞ Konstitusiyasına nəzər yetirək. 1787-ci il Amerika Birləşmiş Ştatlarının Konstitusitasında insan hüquq və azadlıqları barədə müddəalar yox idi. 1791-ci ildə Konstitusiyaya düzəlişlər - Hüquqlar Haqqında Bill qüvvəyə mindi. Burada ABŞ Konstitusiyasına edilən düzəlişlər nəzərdə tutulmuşdu. 4-cü düzəlişdə şəxsi həyatın və mənzil toxunulmazlığının qorunması hüququ öz əksini tapmışdı. Düzəlişdə qeyd olunurdu ki, “Səbəbsiz axtarış və müsadirələrə qarşı insanların şəxsi həyatlarının, evlərinin, sənədlərinin və əşyalarının toxunulmazlığına qəsd edilməyəcək, axtarılacaq yer və müsadirə ediləcək əşya xüsusilə göstərilməklə, təsdiqə əsaslanan böyük ehtimal səbəbi olan hallardan başqa heç bir axtarışa icazə verilməyəcək” [1].

ABŞ dövləti qanuni məqsədlər üçün şəxsi və ailə həyatına ağlabatan müdaxilələr etmək səlahiyyətinə malikdir. Ağlabatan müdaxiləyə nələrin daxil olduğunu məhkəmələr dəqiq şəkildə qeyd etmişdir. ABŞ Konstitusiyasına edilən 4-cü düzəliş dövlətlə vətəndaş arasında tarazlıq yaradır, belə ki, həmin maddə dövlətə istənilən axtarış və müsadirəyə icazə vermədiyi kimi, bu cür axtarışın ağlabatan olduğu halda məqbul hesab edir. ABŞ-da Federal Ali Məhkəmə (bundan sonra FAM) xüsusi bir yerə malikdir və hal-hazırda FAM-nın qərarları həm federasiya, həm də ştatlarda bütün fiziki və hüquqi şəxslər üçün məcburidir.

XIX əsrə qədər ABŞ-da şəxsi həyatın toxunulmazlığı hüququ barədə qanunvericilikdə və ya məhkəmə qərarlarında heç bir inkişaf olmamışdır. Həmin dövrdə şəxsi həyat xüsusi olaraq qorunmamışdır. XIX əsrdən medianın inkişafı ilə əlaqədar insanların izlənilməsi prosesləri artdığı üçün şəxsi həyatın qorunması zərurəti meydana çıxmışdır. Əvvəllər insanların şəxsi həyatı onların yaşayış yerlərində yaşadıqları həyat kimi qəbul edilirdi, buna görə də mənzil hüququna hörmət edilməsi hüququ şəxsi həyata hörmət hüququndan daha öncə təsbit edilərək qorunmağa başlanmışdır.

Texnologiyanın inkişafı insanların şəxsi həyatına müdaxiləni asanlaşdırmış və gizli həyat sferası təhlükəyə məruz qalmışdır. Bunun nəticəsi olaraq şəxsi həyatın təhlükəsizliyinin qorunması hüququ inkişaf etməyə başlamışdır.

Bəhs etdiyimiz şəxsi toxunulmazlıq hüququ, yaşamaq hüququ kimi ənənəvi hüquqlardan bəzi cəhətlərinə görə fərqlənir. Əvvəla sözügedən hüquq uzun müddət xüsusi olaraq mühafizəyə ehtiyac duymamışdır. Lakin sonradan dünyada baş vermiş inkişaf nəticəsində xüsusilə qorunmağa zərurət yarandığı üçün qanunda bu barədə müddəalar nəzərdə tutulmağa başlamışdır.

Hal-hazırda şəxsi həyat – şəxsin başqaları ilə bölüşmək istəmədiyi, yalnız qalmaq istədiyi bir sahəni ifadə etməklə yanaşı, onun ailə həyatını, mənzilini, başqaları ilə ünsiyyətini də əhadə edərək geniş məna ifadə edir. Özəl həyat insanın maddi və mənəvi dünyası, düşüncələri, emosiyaları, sirləri və s. kimi məlumatlardan ibarətdir və sözügedən məlumatların nə dərəcədə əlçatan ola bilməsi şəxsi özündən asılıdır. Daha geniş şəkildə əks etdirsək, şəxsi həyata hörmət hüququ şəxsin adı, təhsili, şərəf və ləyaqəti, sağlamlığı, maddi və mənəvi dünyası, fərdi seçimləri, onun vərdişləri, maraqları, mənzili, ailə həyatı, başqa şəxslərlə əlaqələri, sirləri, yazışmaları, şəxsi sənədləri, şəkilləri, telefon və digər danışıqları, obyektiv və emosional keyfiyyətlərin cəmini ehtiva edir. Hər bir insanın təbiəti etibarilə özü ilə bağlı olub-olmasından asılı olmayaraq başqalarından gizlətdiyi məqamlar vardır.

ABŞ-da şəxsi həyatın qorunması hüququnu da özündə ehtiva edən əsas insan hüquqları konsepsiyasının inkişafı 1776-cı il tarixli Hüquqlar Haqqında Billdə öz əksini tapmağa başladı. Daha sonra ABŞ üçün bu proses 1791-ci ildə 1789-cu il tarixli Konstitusiyaya əlavə edilən 4-cü maddənin müddəası ilə hüquqi çərçivəyə gətirildi. ABŞ-da bu günkü mənada başa düşülən şəxsi həyatın toxunulmazlığı hüququ əvvəlcə tək qalmaq hüququ kimi meydana gəlib. Amerikada axtarış və zəpt etməyə qarşı mühafizə edilmək məqsədilə konstitusiyaya edilən 4-cü düzəlişdə şəxsi həyatın toxunulmazlığı hüququ ifadə edilmişdir. Orada axtarış və zəpt etmə ilə yanaşı, şəxsi həyata edilən digər müdaxilələrə qarşı da 4-cü düzəlişin müddəaları tətbiq olunur. ABŞ Konstitusiyasına edilən 4-cü düzəlişdə şəxsi həyatın kifayət qədər mühafizə olunduğu düşünülərək sonradan bu mövzuya aid başqa bir əlavə və düzəliş edilməmişdir.

Bu maddəyə görə dövlət orqanları tərəfindən ABŞ-da yaşayan bir insanın evini, iş yerini, kompüterini, bank hesablarını və digər şəxsi əşyalarını axtarmaq, həmçinin şəxsin azadlığını məhdudlaşdırmaq üçün səlahiyyətli orqan tərəfindən imzalanmış yazılı qərara ehtiyac vardır. Lakin, göründüyü kimi yalnız dövlət orqanları üçün belə səlahiyyət nəzərdə tutulub, deməli sözügedən maddə mülki şəxslərə aid deyil. Yəni, hər hansı fiziki şəxs tərəfindən digər şəxsin axtarışa məruz qalması və sözügedən hüquqlarının pozulduğu zaman 4-cü düzəliş maddəsi tətbiq olunmur. Lakin buna baxmayaraq, bir çox əyalətlər müəyyən şərtlər daxilində fərdi şəxslərin bir-birinə qarşı bu tədbirləri görməsinə imkan verən daxili qaydalar qəbul edirlər.

Nəzərə alsaq ki ABŞ hüququ və praktikası İngilis hüququna əsaslanır, bu baxımdan İngilis hüquq tarixini araşdırmaq lazımdır. İlk dəfə 1604-cü ildə İngilis hakim Edvard Kok "Semayne" işində belə bir qərar vermişdir: "Hər kəsin mənzili özü üçün rahatlıq tapdığı, istirahət etdiyi bir məkan olmaqla yanaşı, eyni zamanda onun bütün təhlükələrdən sığındığı qalasıdır". Qanunsuz axtarışlara qarşı ən məşhur qərar isə Entik Karrinqtona qarşı işdə verilən qərardır. Belə ki, kralın təmsilçiləri Con Entikin şəxsi evinə icazəsiz girərək bağlı paketləri açaraq sənədlər axtarmış, bir çox sənəd, broşür və kitabçalar üzərinə həbs qoymuşdular. Sözügedən məhkəmə işində hakim belə bir çıxış etmişdir ki, insanlar özlərinin və mülkiyyətinin təhlükəsizliyinin təmin olunması şərti ilə ictimai həyata daxil olurlar. Bu hüquq hər bir vəziyyətdə qorunur və hüquqi əsas olmadan aradan qaldırıla bilməz. Heç kim şəxsin razılığı olmadan ona məxsus məkana daxil ola bilməz [4, s. 23].

ABŞ-da şəxsi həyatın gizliliyinin qorunması hüququ ilə əlaqədar məhkəmə iş ilk dəfə 1902-ci ildə Nyu Yorkda olmuşdur. Həmin işdə iddiaçı şəkillərinin icazəsiz bir reklamda

istifadə olunduğunu iddia etmiş, lakin onun iddiası hələ hüquqda belə bir qayda olmadığı üçün rədd edilmişdir. Bu hadisə o dövrdə insanlar arasında narahatlıq yaratdığı üçün icazəsiz olaraq başqasının adını və şəklini dərc etməyi qadağan edən qanun qüvvəyə mindi.

Şəxsi həyatın toxunulmazlığının qorunması Amerika hüququnda tarix boyu dəyişikliklərə məruz qalmışdır. Birləşmiş Ştatların ilk illərində FAM dövlət orqanlarını məhdudlaşdırmaqda passivlik göstərmiş, bir çox hadisələr 4-cü düzəlişə məhəl qoyulmadan həyata keçirilmişdir. Şəxsi həyatın toxunulmazlığını pozaraq əldə edilmiş sübutlar federal məhkəmələrdə olmasa da, əyalətlərdə mühakimələr zamanı istifadə olunurdu. 1961-ci ildə FAM tərəfindən Map Ohayoya qarşı işdə qərar verildi ki, 4-cü düzəliş maddəsinin pozulması ilə əldə olunmuş sübutlardan istifadə oluna bilməz [9].

1960-cı illərə qədər soyuq müharibə dövrü olduğu üçün dövlət tərəfindən bəzi qruplar təqib edilərək şəxsi toxunulmazlıq hüququ ciddi şəkildə pozuntulara məruz qalmışdır. ABŞ-da bugünkü mənada şəxsi həyatın qorunması hüququ 1965-ci ildə FAM tərəfindən Qrisvold Konnektikuta qarşı qərarda öz əksini tapdı. Belə ki, doğuşa nəzarət həbləri istifadə etməyi qadağan edən əyalət qanunu etibarsız hesab edildi [5].

1960-cı illərin sonundan etibarən ABŞ-da şəxsi toxunulmazlıq hüququ federal və əyalət qanunları ilə qorunmağa başlandı. 1968-ci ildə qüvvəyə minən “Cinayətə nəzarət və təhlükəsiz küçələr qanunu” ilə telefon danışıqlarının dinlənilməsi üçün məhkəmə qərarı zəzuri oldu, həmçinin şəxsin icazəsi olmadan onun haqqında əldə edilən məlumatların başqa şəxslər tərəfindən istifadə olunması qadağan edildi.

Daha sonra 1966-cı ildə qəbul edilən “Məlumat azadlığı haqqında”, 1974-cü il “Şəxsi həyat haqqında” və 1980-cı il “Şəxsi toxunulmazlıq hüququ haqqında” qanunlar vətəndaş haqqında məlumatları toplamaq, istifadə etmək və nümayiş etdirmək barədə dövlətə müəyyən məhdudiyyətlər qoydu. Bu qanunlar həmçinin, vətəndaşa onun haqqında toplanmış məlumatlarla tanış olmaq və düzgün olmayan məlumatlara düzəliş etmək tələbi irəli sürmək hüququ verdi. Lakin 1980-cı illərdə FAM öz qərarlarında məhkəmə qərarı olmadan axtarış və zəpt etmə, şəxsi həyata müdaxilə məsələlərində polisə sərbəstlik verərək 4-cü düzəliş maddəsini bir növ məhdudlaşdırdı.

Mülki hüquqi iddialarda da şəxsi toxunulmazlıq hüququnun pozulması hallarına rast gəlinirdi. Məsələn, insanların təkbaşına qalmaq hüququ zor tətbiq edilməklə və ya təhqirlə pozulduqda; şəxsi məlumatlar ziddiyyətli formada və ya düzgün olmayan formada ictimaiyyətə açıqlandıqda; şəxsin adı və ya təsviri (fotosu/şəkli) onun icazəsi olmadan istifadə edildikdə; kommersiya sirri və məlumatları oğurlandıqda və s. [10]. Göstərilənlərə aid iddialar əsasən kütləvi informasiya vasitələrinə qarşı olur. Söz və ifadə azadlığını qorumaq məqsədilə sözügedən iddialarla şəxsi həyata hər cür müdaxilələr zamanı deyil, yalnız son dərəcə əsaslı olduqda və zor tətbiq edildikdə müraciət etmək olar. Onu da qeyd etmək lazımdır ki, media nümayəndələri və tanınmış şəxslərin bu cür iddialarla müraciət etmək imkanı daha məhduddur.

Bütün dövlətlər kimi ABŞ da vətəndaşlarının həyat keyfiyyətlərini yaxşılaşdırmaq üçün hədsiz səlahiyyətlərə malikdir, yəni vətəndaşlar haqqında informasiyalara sahibdir. Lakin təəssüflər olsun ki bəzən bu məlumatlar şəxsin əleyhinə də istifadə oluna bilir. Amerikada 2001-ci il 11 sentyabr hadisəsindən sonra dövlətin şəxsi toxunulmazlıq hüququnun qorunması sahəsindəki hərəkətləri pis təcrübələr formasında təzahür etdi. 11 sentyabr hadisələrindən sonra dövlətin vətəndaşların həyatına müdaxilə etmək istəyi artmağa başladı.

ABŞ hüquq sistemində şəxsi toxunulmazlıq hüququnu məhdudlaşdıran tərdbirlər axtarış anlayışı çərçivəsində qiymətləndirilərək presedent hüququ ilə tənzimlənmişdir. FAM-ın qərarlarına nəzər yetirsək görərik ki, 4-cü düzəlişdə axtarışa məruz qalan məsələlərdə şəxsi həyat xaricində qalanlar nəzərə alınmamalıdır. Yəni, açıq sahədə olan axtarışlar, səkilərdə olan zibil qabına atılmış əşyaların götürülüb araşdırılması, müxtəlif vasitələrlə havadan aparılan müşahidələr, şübhəli tərəfindən edilən telefon zəngində

istifadə olunan nömrənin müəyyən edilməsi kimi əməliyyatlar şəxsi həyatın məxfiliyinin ağlabatan gözləntiləri olmadığı üçün 4-cü düzəlişdəki axtarış anlayışına daxil edilmir [2,s.260].

Polisin qanuni olaraq şübhələndiyi əşyalarla bağlı axtarış aparması 4-cü düzəlişdəki maddənin pozulması hesab olunmur. ABŞ hüquq sistemində də cinayət mühakimə icraatı zamanı şəxsi həyata müdaxilə hesab olunan hər hansı tədbiri qanuni şəkildə həyata keçirə bilmək üçün əvvəlcə səlahiyyətli şəxs tərəfindən axtarış qərarı verilməlidir. Şəxsi həyata müdaxilə edən axtarış, zəbt etmə, telefon danışıqlarına qulaq asma, tutma kimi tədbirləri tətbiq etməyə icazə verən qərarı səlahiyyətli məhkəmədən tələb etmək üçün hüquq-mühafizə orqanlarının əsaslı səbəbi olmalıdır. ABŞ-ın hüquqi praktikasında ehtimal olunan səbəb kimi aşağıdakılar nəzərdə tutulur:

- cinayət törədilməsi
- şübhəli və anormal davranışlar
- polisdən qaçma və gizlənmə
- barmaq izi kimi sübutlar
- əlaqəli şəxs tərəfindən cinayətkarın eyniləşdirilməsi və ya bənzədilməsi
- sübutları məhv etməyə cəhd edilməsi
- məhkumluğun olması
- təqsirləndirilən şəxs tərəfindən edilən ittiham xarakterli bəyanatlar
- şübhəli və ya həqiqətə uyğun olmayan cavablar verilməsi
- şübhəli şəxsin hadisə yerində olması.

4-cü düzəlişdə nəzərdə tutulan axtarış ağlabatan şübhə nəticəsində də həyata keçirilə bilər. Səlahiyyətli şəxslər cinayət hadisəsinin törədilməsinə dair bilinən və ya asanlıqla başadüşülən diqqətəlayiq səbəblərə malik olduqda da axtrarış apara bilərlər. Hər bir halda yazılı şəkildə icazə tələb olunur. Axtarış üçün icazə tələb edilərkən ehtimal olunan səbəblərin və ağlabatan şübhənin doğru olduğuna dair və icazəni tələb edən səlahiyyətli şəxsin bu barədə tam nəticəyə gəldiyinə dair səlahiyyətli hakimə and içməsi tələb olunur [4].

Bu qərarın alınması çətin və uzun proses olduğu üçün bu haldan istisnalar da var. Hakim Reinquistin Məhkəməyə təyin edilməsindən sonra yazılan qərarlarda istisna halları daha da genişləndirildi. Belə ki, Kadi Dobrovskiyə qarşı işdə qəzaya uğrayaraq zədələnmiş avtomobildə icazəsiz axtarış aparılmasına razılıq verilmişdir [3]. Hüquqi icazə olmadan şəxsi həyata müdaxilə sayıla bilən axtarışlar, bəzi məqamlar istisna olmaqla, ağlabatanlıq şərtinə ziddir. Cinayət törətdiyinə dair şübhə doğuran hərəkətlər edən və ya cinayətə hazırlıq hərəkətləri edən bir şəxsin üzərində axtarış aparılması da sözügedən istisna hallara daxildir.

Şəxsin özəl həyatının hüdudlarına onun iradəsi əleyhinə, həmçinin qanuna uyğun heç bir səbəb olmadan daxil olmaq şəxsi toxunulmazlıq hüququna müdaxilə hesab olunur. Gizli formada şəxsin mənzilinə daxil olma, hüquqa zidd olaraq şəxsi əşyalarının axtarışı, məktublarının açılması, şəxsiyyətinə, sağlamlıq vəziyyətinə, cinsi həyatına və ümumilikdə həyat tərzinə aid məlumatların əldə edilib açıqlanması, texniki imkanlardan istifadə edərək şəxsin izlənilməsi şəxsi həyatın toxunulmazlığı hüququnun pozulmasına nümumə kimi göstərilə bilər. Xüsusilə də, texnologiyanın bu qədər inkişaf etdiyi dövrdə kameralar, izləmə cihazları, teleskopik cihazlar və s. istifadə olunmaqdadır. Xırda kameralar demək olar ki bütün əşyalara quraşdırıla bilirlər. Fiziki fəaliyyəti real vaxt rejimində izləyə bilən belə alətlər bəzi cinayətlərin qarşısının alınması və ya terror fəaliyyətinin qarşısını almağa kömək etsə də, sui-istifadə edilərsə insanların həyatlarına mənfi təsir etmək imkanına malikdir.

ABŞ-da telefon və ya mail vasitəsilə real vaxt rejimində aparılan rabitə prosesi zamanı məlumatlara qulaq asmaq və qeyd aparmaq üçün 4-cü düzəliş maddəsinin şərtlərinə uyğun olaraq qəbul edilmiş “Elektron rabitə məxfiliyi” haqqında qanuna əsasən hakim tərəfindən icazə verilməsi zəruridir. ABŞ “Elektron rabitə məxfilik Qanununa” edilən

əlavəyə əsasən telefon şirkətləri və internet provayderləri vasitəsilə biznes qeydlərinə məhdudiyyətsiz giriş imkanı mövcuddur. Abunəlik haqqında əsas ümumi məlumatlar çağırış vərəqi ilə əldə oluna bilər və bu barədə müştərilərə məlumat verməyə ehtiyac yoxdur. Lakin şəxsin kimlərlə görüşdüyü və danışdığı barədə daha təfərrüatlı məlumatlar cinayətin araşdırılması üçün zəzuri olduğu əsaslandırılaraq milli təhlükəsizlik məktubu vasitəsilə əldə edilə bilər. Sözügedən qanunda həmçinin, cinayəti proqnozlaşdırmaq və öncədən qarşısını almaq üçün hüquq mühafizə orqanlarına saxta profil yaratmaq səlahiyyəti də verilir [12]. Lakin FAM-da bununla əlaqəli heç bir qərar yoxdur.

Hal-hazırda texnoloji inkişafın təqdim etdiyi müşahidə vasitələrilə edilən müdaxilə prosesləri ilə bağlı iki real təhlükə var: məlumatların toplanması; onların emalı və istifadəsi. Məlumatların emalı onları saxlama, uyğunlaşdırma, düzəltmə, aydınlaşdırma və dövriyyə proseslərinin əhatə etməklə məlumat toplanmasından da geniş anlayışı əhatə edir [8].

1928-ci ildə FAM tərəfindən verilmiş Olmsted Birləşmiş Ştatlara qarşı iş üzrə qərarda 4-cü düzəlişdəki maddənin mühafizə dairəsi qapalı yerlər, insanlar, kağızlar (sənədlər), ev əşyaları ilə məhdudlaşdırılır. Sözügedən qərarda qapalı yerdəki telefon danışıqlarına oraya fiziki olaraq daxil olunmadan qulaq asıldığı üçün 4-cü düzəliş maddəsinin pozulması tanınmadı [11]. Bu qərarın nəticəsi olaraq 1934-cü ildə Federal Kommunikasiya Qanunu qüvvəyə mindi. Daha sonra 1967-ci ildə Katz Birləşmiş Ştatlara qarşı işdə öncəki presedent ləğv edilərək qapalı yerdə edilən telefon danışıqlarına kənardan gizlicə qulaq asılması şəxsi həyata müdaxilə hesab olunaraq 4-cü düzəliş maddəsinin pozuntusu kimi qərar verildi. Beləliklə Məhkəmə sözügedən maddənin məkan və əşyanı, bir sözlə yalnız mülkiyyəti deyil, insanın şəxsi muxtariyyətini və azadlığını da qoruduğunu bəyan etdi [6].

Lakin onu da qeyd etmək lazımdır ki, ABŞ-da şəxsi həyata müdaxilənin baş verməsi üçün şəxsin danışıqlarını və özəl həyatını gizlin tutmaq istəyi olmalıdır. Yəni, əgər şəxs küçədə hamının eşidəcəyi səs tonu ilə ucadan söhbət edirsə, onun danışıqlarına qulaq asılması şəxsi həyata müdaxilə hesab olunmur.

1968-ci ildə ABŞ-da “Cinayətə nəzarət və təhlükəsiz küçələr” qanunu qəbul edilərək təcili olmayan izləmə və telefon danışıqlarına qulaq asma prosedurlarının icazə alınmadan texniki vasitələrlə aparılması cinayət hesab edilmişdir. Bu cür tədbirlərə yalnız adi yolla aparılan istintaq hərəkətləri vasitəsilə nəticə əldə etmək mümkün olmayacağı təqdirdə və ya adi üsulların çox təhlükəli olduğu vaxtlarda yol verilir [12].

1972-ci il Birləşmiş Ştatlar Miçiqanın şərqi əyalət məhkəməsinə qarşı işdə çıxarılan qərara əsasən, nazir xarici qüvvələrlə əlaqədar heç bir icazə olmadan telefon danışıqlarına qulaq asa bilər, lakin yerli təşkilatlarla bağlı belə bir səlahiyyəti yoxdur [13].

Qeyri-qanuni məqsədlər üçün ictimai yerlərdə hər hansısa şəxsin izlənilməsi, onun haqqında şəxsi məlumatların toplanması və istifadəsi şəxsi həyatın qorunması hüququnun pozulması hesab olunur. Requist hesab edirdi ki, dövlətin tutulma, həbsə alma və məhkumluq kimi məlumatları təhlükəsizlik orqanları arasında mübadilə etməyi, sözügedən məlumatların gizli tərəfi olmadığı və ictimai xarakter daşıdığı üçün əsaslıdır. Son dövrlərdə ABŞ-da törədilən terror aktlarından sonra vətəndaşlar tərəfindən texnoloji vasitələrin köməkliyi ilə ictimai yerləri izlənilməsi tələbi artdı.

1983-cü il tarixli Birləşmiş Ştatlar Qnotsa qarşı işdə qəbul edilən qərar əsasında belə qənaətə gəlmək olar ki, heç bir məhkəmə qərarı olmadan küçədə gəzən insanların 24 saat boyu müşahidəsi və qeyd aparılması 4-cü düzəliş maddəsinin pozulması hesab olunmur.

ABŞ-da şəxsi və ailə həyatının qorunmasını təmin edən, özündə bu hüququn məhdudlaşdırıla biləcəyi halları ehtiva edən bir neçə qanunun adını çəkə bilərik: “Cinayətə nəzarət və təhlükəsiz küçələr Qanunu”, “Elektron rabitənin məxfiliyi Qanunu”, “Xarici kəşfiyyata nəzarət Qanunu”, “Vətənpərvərlik Qanunu” və s. sözügedən hüququn qorunması Amerikan hüquq tarixi boyunca dəyişikliklərə məruz qalaraq bu günümüzə gəlib çatmışdır. FAM öz qərarlarında şəxsi həyatın qorunması hüququnun əhatəsini bəzən genişləndirmiş, bəzən isə məhdudiyyətlər tətbiq etmişdir.

## Xülasə

Bu məqalədə Amerika Birləşmiş Ştatlarında (ABŞ) şəxsi həyatın toxunulmazlığı hüququnun necə formada təsbit edilməsinə nəzər yetirilmişdir. ABŞ Konstitusiyasına edilən 4-cü düzəliş maddəsində şəxsi həyatın toxunulmazlığı hüququ əksini tapmışdır. ABŞ-ın Federal Ali Məhkəməsi öz qərarlarında şəxsi həyatın qorunması hüququnun əhatəsini bəzən genişləndirmiş, bəzən isə məhdudiyyətlər tətbiq etmişdir.

## Resume

This article examines how the right to privacy is established in the United States of America (USA). The right to privacy is reflected in the 4th amendment to the US Constitution. The Federal Supreme Court of the United States has in its decisions sometimes expanded the scope of the right to privacy and sometimes applied limitations.

## Резюме

В данной статье рассматривается, как устанавливается право на неприкосновенность частной жизни в Соединенных Штатах Америки (США). Право на неприкосновенность частной жизни отражено в 4-й поправке к Конституции США. Федеральный Верховный Суд Соединенных Штатов в своих решениях иногда расширял объем права на неприкосновенность частной жизни, а иногда накладывал ограничения.

## İstifadə olunmuş mənbələr:

1. Bill of Rights US, 1791 https://billofrightsinstitute.org/primary-sources/bill-of-rights
2. Bradley, Craig M., 2013, “Rehnquist's Fourth Amendment: Be Reasonable”, Symposium William Rehnquist's Fourth Amendment, Mississippi Law Journal, Volume 82, 2013, Number 2, Oxford MS.
3. Cady v. Dombrowski, 413 U.S. 433 (1973) https://supreme.justia.com/cases/federal/us/413/433/
4. Dr. Ayhan Bozalk, ABD hukukunda Özel hayatın gizliliği hakkının korunması, 2015, Beta yayınları, İstanbul.
5. Griswold v. Connecticut, 381 U.S. 479 (1965) https://supreme.justia.com/cases/federal/us/381/479/
6. Katz v. United States, 389 U.S. 347 (1967) https://supreme.justia.com/cases/federal/us/389/347/
7. Kleining, John; Mameli, Peter; Miller, Seumas; Salane, Douglas and Schwartz, Adina 2011, Security and Privacy: Global standards for ethical identity management in contemporary Liberal Democratic States, ANU E press.
8. Lyon, David, 2001, Surveillance Society: Monitoring Everyday Life, Open University Press, Philadelphia.
9. Mapp v. Ohio, 367 U.S. 643 (1961) https://supreme.justia.com/cases/federal/us/367/643/
10. Mark F. Mikula, L. Mpho Mabunda, Allison Mc Clintic Marion, Great American court cases, 1999, Gale Group, Detroit.

**11.** Olmstead v. United States, 277 U.S. 438 (1928) https://supreme.justia.com/cases/federal/us/277/438/
**12.** Slobogin, Christopher, 2007, Privacy At Risk: The New Goverment Surveillance and The Fourth Amendment, The University of Chicago Press, Chicago and London.
**13.** United States v. U.S. District Court for Eastern District of Michigan, 407 U.S. 297 (1972) https://supreme.justia.com/cases/federal/us/407/297/